

Biz ölkələrimizi müstəqillik yolu ilə irəliyə aparırıq. Mən dəfələrlə demişəm ki, Türkiyənin artan gücü bizi gücləndirir və biz bir-birimizə güc qataraq böyük dünya çapında bir güc mərkəzinə çevrildik.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti.

# “TEKNOFEST AZƏRBAYCAN”: ƏSL QARDAŞLIĞIN VƏ MÜTTƏFİQLİYİN MÖHTƏŞƏM NÜMAYİŞİ

*Azərbaycan və Türkiyə dost, qardaş və müttəfiq ölkələrdir. Bakıda ilk dəfə keçirilən "Teknofest Azərbaycan" Aerokosmik və texnologiya festivalı bu iki ölkənin sarsılmaz birliyi, həmrəyliyi ilə növbəti dəfə dünyanı heyrətləndirdi, gələcəyimiz olan gənclərin bu ali dəyərlərə verəcəkləri töhfələrin aydın mənzərəsini nümayiş etdirdi.*

"Teknofest" Türkiyənin ən böyük aviasiya, kosmos və texnologiya festivalıdır. Tədbir "Türkiyə Texnologiya Komandası" - T3 Fondu və Türkiyə Respublikasının Sənaye və Texnologiya Nazirliyi tərəfindən 2018-ci ildən etibarən hər il təşkil olunur. Məqsəd Türkiyədə aviasiya, kosmik sənaye, rəqəmsal iqtisadiyyat kimi sahələrin gənclər arasında təbliği, bu sahələrdə sahibkarlığın təşviq edilməsi, festival çərçivəsində təşkil olunan yarışlar vasitəsilə gənc mühəndislərin bilik və bacarıqlarının üzə çıxarılması, eləcə də milli texnologiyaların geniş ictimaiyyətə təqdim olunmasıdır. Ötənilki festivala Türkiyənin 81 vilayətindən və 111 ölkədən 44.912 komanda və 200.000 nəfər müraciət etmişdi.

"Teknofest" müstəqilliyi, qardaşlığı, elmi əldə rəhbər tutan bir ideya, ruhdur. Məhz onun fonunda dostluğumuzun, qardaşlığımızın daha da möhtəşəm olacağını artıq indidən aydın görür və bundan qürur hissi keçiririk. Hər bir inkişafın, tərəqqinin təməlində bilik, yeni texnologiyalar, yeni ideyalar dayanır. İki qardaş ölkələrimiz daim yeniliyə, müasirliyə meyil göstərərək hər bir yeni təcrübənin tətbiqi fonunda dayanıqlı inkişafları ilə diqqətdə olur.

Azərbaycan ilk dəfə 2021-ci ildə "Teknofest" Aviasiya, Kosmos və Texnologiya Festivalında iştirak edib. Festivalın sərgi hissəsində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən qurulmuş Azərbaycan Milli Pavilyonunda 11 yerli şirkət və startapın məhsul və həlləri nümayiş olunub, həmçinin ölkəmizin yerli istehsalı olan pilotsuz uçuş aparatları sərgilənib. Tədbir çərçivəsində təşkil olunan hava şoularında Azərbaycan Hərbi Hava Qüvvələrinin peşəkar pilotları "MiQ-29" qırıcı təyyarələri ilə solo pilotaj uçuşları həyata keçiriblər. Tədbirdə Azərbaycanın Müdafiə Nazirliyi tərəfindən iki "MiQ-29" təyyarəsi, eləcə də Müdafiə Sənayesi Nazirliyi tərəfindən "İti qovan", "Orbiter 2", "Orbiter 3", "Orbiter 4" kimi pilotsuz hava vasitələri də sərgilənib.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin vurğuladığı kimi, Türkiyənin uğurlu inkişafı, ilk növbədə, Prezident Rəcəb Tayyib Ərdoğanın adı ilə bağlıdır. Qardaş Türkiyənin dövlət başçısı da bildirdi ki, fəaliyyətində həmişə Azərbaycan xalqının və dövlətinin milli maraqlarının müdafiəsinə çalışıb, Azərbaycanın müstəqil siyasətini təqdir edib. Hər iki ölkənin dövlət başçılarının qardaşlığı Türkiyə və Azərbaycan xalqlarına örnəkdir.

2022-ci ilin 26-29 may tarixlərində "Bakı Kristal Zalı" və Dənizkənarı bulvar ərazisində "Teknofest"in Türkiyədən kənarda ilk dəfə Azərbaycanda keçirilməsi iki ölkə arasındakı dostluq, qardaşlıq və strateji müttəfiqlik əlaqələrinin növbəti təzahürüdür.

Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı, ötən il möhtəşəm Şuşa Bəyannaməsinin imzalanması əsasında rəsmiləşmiş müttəfiqliyi ilə hər zaman digər ölkələrə örnəkdir. Müstəqillik Günündə Azərbaycan və Türkiyə dövlət başçılarının bir yerdə olmaları, çoxəsrlik tariximizi birgə vərəqləmələri, "Bir ananın iki oğlu, bir ağacın iki qolu" kimi dəyərləndirilən Azərbaycanın və Türkiyənin inkişaf yolu ilə birgə addımlaması qürurverici olmaqla yanaşı, bu günümüz, gələcəyimiz üçün bir təminatdır. Dövlət başçısı cənab İlham Əliyevin qeyd etdiyi kimi, Türkiyə-Azərbaycan qardaşlığı, birliyi xalqlarımız üçün əsas yol istiqaməti, bölgə, dünya üçün də çox önəmli təhlükəsizlik, sabitlik amilidir. Nə qədər Türkiyə və Azərbaycan bir yerdə inamla addımlasalar, bölgəmizdə sülh və əmin-amanlıq bir o qədər də möhkəm olacaq. Bütün dünya bunun 44 günlük Vətən müharibəsi zamanı bir daha şahidi oldu. Türkiyə sonadək Azərbaycana önəmli mənəvi və siyasi dəstəyini əsirgəmədi. Ən əsası müharibənin ilk günündə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" bəyanatı xalqımıza Vətən uğrunda həlledici savaşda əlavə güc, ruh, inam verdi. Tarixi Zəfərimizin sevincini iki ölkə, iki xalq birlikdə yaşadı və bu gün də işğaldan azad edilmiş torpaqlarda bərpa-quruculuq işlərini birgə həyata keçirir, Böyük Qayıdışa birlikdə hazırlaşırlar. "Teknofest" birliyimizin növbəti nümayişi, təzahürüdür" söyləyən dövlət başçısı, həmçinin bildirdi ki, "Teknofest" elm, inkişaf, bilik, texnologiya bayramıdır. "Teknofest"də iştirak edən gənclər bu tarixi günü hər zaman yadda saxlayacaq. Bir neçə gün bərabər olan Türkiyə və Azərbaycan gəncləri artıq bir ailə kimi bir-birinə yaxın oldu və gələcəkdə də daim bir yerdə olacaqlar.

Festivalın təşkilatçıları "Türkiyə Texnologiya Komandası" - T3 Fondu, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Türkiyə Respublikasının Sənaye və Texnologiya Nazirliyidir. "Teknofest Azərbaycan" çərçivəsində 8 kateqoriya üzrə texnologiya müsabiqələri, "Smart Qarabağ" Hakatonu, "Take Off" Azərbaycan Startap Sammiti və "Rocket League" videooyunu üzrə Avropa Kiber İdman Kuboku təşkil olundu. Tədbirin sərgi hissəsində tərəfdaş qurumların məhsul və həllərinin, eləcə də gənclərin hazırladıqları prototiplərin və STEM layihələrin nümayişi oldu, açıq səma altındakı statik ərazidə isə pilotsuz uçuş aparatları və vertolyotlar sərgiləndi. Festivalın əyləncə proqramına Azərbaycan Hərbi Hava Qüvvələrinin, eləcə də Türkiyənin "Türk Ulduzları" və "Solo Türk" aerobatika komandalarının nümunəvi pilotaj uçuşları, böyük səhnədə incəsənət xadimlərinin çıxışları, şaquli külək tuneli, su attraksionları, uçuş simulyatorları, robotlar və s. daxil idi.

Kənd təsərrüfatı texnologiyalarından yaşıl texnologiyalara, Pilotsuz Uçan Aparatlardan model peyk yarışmasına qədər müxtəlif kateqoriyalar üzrə keçirilən müsabiqələrdə gənclər öz layihələrini təqdim etmək imkanı qazandılar. Festivalda müxtəlif kateqoriyalar üzrə çoxlu sayda müsabiqələr keçirildi.

44 günlük Vətən müharibəsi ilə dünyəvi şöhrət qazanmış "Bayraktar" dronlarını gənclərin texnologiyaya axınının əsas səbəbkarı adlandıra bilərik. "Teknofest Azərbaycan" gənclərin süni intellekt, proqram təminatı, robotların və PUA-ların hazırlanması, standart planer modelində sınaqların keçirilməsi, uçuşun proqramlaşdırılması və məlumatların toplanması, idarəetmə sistemlərinin layihələndirilməsi və inşası üzrə bacarıqlarının geniş şəkildə ictimaiyyətə təqdim olunması üçün imkan yaratdı. Tələbələr və gənclər arasında kosmik sahəyə artan maraq yerli kadrların yetişdirilməsi baxımından da çox vacib bir nüansdır. Bu festival gənclərimizin elmə, texnologiyaya marağının artmasına və yeni layihələrə imza atmalarına təkan verəcək. "Teknofest" həm də beynəlxalq bazarlara çıxış imkanı olan startaplarımıza əməkdaşlıq baxımından əhəmiyyətli rol oynayacaq.

Azərbaycan-Türkiyə qardaşlığını təsdiqləyən hər bir addım, səsləndirilən hər bir fikir, eyni zamanda, Azərbaycan torpaqlarını 30 ilə yaxın işğal altında saxlayan Ermənistana və ona havadarlıq edən dövlətlərə ciddi mesajları özündə əks etdirir. Hər zaman ədalətin, beynəlxalq hüququn yanında olan Azərbaycan və Türkiyə təzyiqlə, təhdidlə qorxudulanlardan olmadılar, işğala və haqsızlığa qarşı hər şəraitdə doğru olanı söyləməkdən, haqqı müdafiə etməkdən geri çəkilmədilər. Tarixi Zəfərimiz göstərdi ki, bizim heç kimin torpağında gözümüz olmadığı kimi, düşmənə verəcək bir qarış torpağımız da yoxdur və olmayacaq. Harada haqsızlıq, ədalətsizlik varsa, Azərbaycan və Türkiyə birlikdə səsini ucaldır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qeyd etdiyi kimi, 44 günlük Vətən müharibəsi ağıl, texnologiya və cəsarət bir araya gəldikdə nələrin edilə biləcəyini bütün dünyaya göstərdi. "Teknofest" məhz bunun rəmzi olan bir tədbirdir.

İlk dəfə Müstəqillik Günü kimi qeyd etdiyimiz 28 May tarixi özündə bir sıra mühüm məqamları birləşdirdi. Bir daha sübut olundu ki, keçmiş "Dağlıq Qarabağ" münaqişəsi artıq həll edilməklə tarixin arxivinə atılıb. Bölgədə yeni bir səhifə açılıb. Dayanıqlı sülhün təmin olunması, etimadın və mehriban qonşuluq əlaqələrinin qurulması, inkişafın sürətlənməsi fonunda bölgədə sabitlik də möhkəmlənəcək, gələcək üçün yeni əməkdaşlıq formatlarının təməli də qoyulacaq. Azərbaycan və Türkiyə bütün bu hədəflərin mərkəzində olaraq onların reallığa çevrilməsində öz sözlərini qətiyyətlə deyirlər. Prezident cənab İlham Əliyevin vurğuladığı kimi, Türkiyə və Azərbaycan arasındakı tarixi, mənəvi, ortaq etnik köklərə bağlılıq, oxşar dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, xalqlarımızın qardaşlığı, həmrəyliyi dünya miqyasında nadir əməkdaşlıq, işbirliyi, müttəfiqlik nümunəsidir.

**Emin QASIMOV,**
**"Respublika".**